# Xocalının sinəsi dağlı şahidləri...

***10 min nəfərlik bir şəhərin üstünə müasir silahların bütün növləri ilə hücum etmək, qaçıb canını qurtarmaq istəyənləri isə hər yerdə pusquya salıb güllələbaran etmək nümunəsini tarixə özünü zavallı kimi qələmə verib, ali bir xalq olduğunu zənn edən erməni yırtıcı toplumu "hədiyyə" etmişdir. XX əsrin son onilliyində bu misilsiz qətliamı ağlını tamamilə itirmiş, təpədən-dırnağadək quduzlaşmış erməni millətçi faşistləri dünyanın gözü qarşısında qorxub-çəkinmədən törətmişlər.***



Təcavüzkar Ermənistan ərazisində millətçi dövlət qurduğu Azərbaycanın Xocalı şəhərini 1992-ci ilin 25–26 fevral gecəsində yer üzündən silmişdir. O gecə və sonrakı günlərdə işgəncə ilə qətlə yetirilən yüzlərlə soydaşımızın günahsız şəhidliyinin çoxsaylı şahidləri söylədikləri illər ötsə də, düşmənə qəzəb və nifrətimizi bir az da çoşdurur.

O gecə Xocalıya hər tərəfdən hücum edildiyindən döyüşçülərimiz mühasirəni Əsgəran istiqamətində yarıb adamların Ağdam səmtinə qaçmasına imkan yaratmışdılar. Lakin xocalılılar Ağdam rayonu ilə qonşu olan Əsgəran rayonunun Naxçıvanik kəndi yaxınlığında erməni silahlı dəstələri tərəfindən yenidən mühasirəyə alınıb güllələbaran edilmişdilər.

Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran – Naxçıvanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdilər.

***Faciənin şahidlərindən olan Cavid Əliyev o zaman Xocalı Rabitə şöbəsinin müdiri idi. O, şəhəri sonuncu tərk edənlərdən biri olmuşdu:***

–Ayağı yer tutan qoca, qadın, uşaq şəhəri tərk edəndən sonra, mən rabitəni söndürüb çıxdım. Şəhər zirehli texnikalarla mühasirəyə alınmışdı. Ermənilər tanklarla, digər zirehli texnika ilə hər tərəfdən irəliləyirdi. Biz bu hücum barədə gündüzdən Ağdama və Şuşaya məlumat vermişdik. Mənim işçilərimdən Gülbahar, anası və bacısı həmin gecə öldürüldü. Mən də atamı, anamı, bütün qohumlarımı o gecə itirdim.

***O müdhiş gecənin digər şahidlərinin dediklərindən:***

**Sürən Məmmədov:** "Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəvi səhifələrdən biri kimi daxil olub. Fevralın 26-da gecə saatlarında Xocalı ağır atıcı silahlardan atəşə tutuldu. Həmin gün hava dəhşətli soyuq idi, qar yağmışdı. Biz çayı keçərək meşə yolu ilə Ağdam rayonuna üz tutduq. Həmin ərazidə ermənilər Xocalı sakinlərini dəhşətli şəkildə qətlə yetirdi. Oğlum, bacım, kürəkənim gözlərimin önündə öldürüldü. Bu dəhşətli anları heç vaxt unuda bilmirəm".

**Qaryağdı Quliyev:** "Mən avtoqarajda mühafizəçi işləyirdim. 25-dən 26-na keçən gecə Xankəndidə yerləşən 366-cı alayın ağır zirehli texnkaları Xocalıya hücum etdi. Bütün istiqamətlərdə şəhəri mühasirəyə aldılar. Gecə yaşıl fişəng atıldı. Ermənilər əvvəlcə Xocalı aeroportunu ələ keçirdilər. İlk hücum zamanı şəhərdə yerləşən bütün evlər yandırıldı. Bununla bağlı poçt vasitəsilə Ağdam və Şuşaya məlumat versək də, heç bir cavab ala bilmədik. Sakinlər məcbur olub gecə saat 1-də şəhəri tərk etməli oldu.

Qarlı havada yaşlı insanlar, qadınlar, körpə uşaqlar meşə yolu ilə qaçmağa çalışırdı. Səhərisi gün gördüyümüz mənzərə bizi şoka saldı: erməni cəlladları tərəfindən təhqir olunmuş meyitlər. O mənzərəni gözümün önünə gətirə bilmirəm. Necə danışım?! Çox ağırdı o günləri xatırlamaq. İnsanların başı, qadınların döşləri kəsilmişdi, körpə uşaqlar ağılasığmaz dərəcədə öldürülmüşdü. Həmin gecə ailə üzvlərimdən 4 nəfər – iki qızım, bir oğlum və qardaşım şəhid oldu".

**Razim Mustafayev:** "Həmin gün ermənilər dəhşətli vəhşiliklər etdilər. İnsanlığa sığmaz dərəcədə faciə törədildi. Qaynım Hüseyni öldürdükdən sonra qızıl dişlərini çəkib çıxarmışdılar, qadınlara süngü ilə işgəncə verib öldürürdülər. Mən çaydan keçəndə gördüm ki, qonşum Vaqifin arvadı və 3 oğlunun meyiti Xaçın çayında qalmışdı. Ana üç oğlunu necə qucaqlamışdısa, meyitlər suyun içində bir-birinə yapışıb qalmışdılar. Gecə çətinliklə gəldik Ağdam rayonuna. Sağ olsun Ağdam camaatı və könüllü döyüşçülər bizi qarşıladılar".

Əli kişi evinin Xocalının ən ucqar yerində, Noraguğla üzbəüzdə olduğunu deyib. "Basqın birinci bizim evlərə oldu və bütün məhəlləmizdəki evləri yandırdılar. Balaca qardaşımı evimizdə öldürdülər. Sonra ermənilər zirzəmilərdə gizlənmiş çoxsaylı qadınları və uşaqları güllələdilər. Bizim məhlədə yaşayanların, demək olar ki, hamısı öldürüldü. Məhləmizdən iki-üç adam qalmışıq".

Şəhər sakini Tahir fevralın 25-dən 26-na keçən gecə "Kəsik" deyilən yerə qaçdıqlarını deyir. "Yolda anamız yoruldu, mühasirəyə düşdük. 6 sutka mühasirədə qaldıq, anamız soyuqdan donub öldü. 6 sutkadan sonra Ağdamın Muğanlı kəndinə çatdıq. Qardaşım Tofiq hadisələrdən 12 gün sonra gəlib çıxdı. Soyuqdan hamımızın ayaqları donmuşdu".

Zülfiyyə isə həmin gecə bütün əzizlərini itirib. "Hamısı Xocalı hadisələri zamanı ermənilər tərəfindən qətlə yetirilib. O gecə həyat yoldaşımı, nəvəmi, gəlinimi, oğlumu, yeznəmi – hamını itirdim. Yolda hər yer meyitlərlə dolu idi. Qaranlıqda zülmlə meyitləri ayaqlaya-ayaqlaya yol gəldik. Qaynım hələ də girovdur. Ağdama az qalmışdı, yenidən ermənilər qarşımızı kəsdi, hamını qırdı. Qarın üzərində insan meyitləri o qədər idi ki, elə bilirdin qara yaylıq sərilib".

***Hazırladı:***
***T.AYDINOĞLU, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 25 fevral.- S.19.